Bölgələrdə seçkilər ədalətli və şəffaf şəraitdə keçirildi

Naxçıvan

Ölkənin ictimai-siyasi həyatında mühüm əhəmiyyətə malik hadisələrdən biri hesab olunan bələdiyyə seçkiləri Naxçıvan Muxtar Respublikasının paytaxtı olan Naxçıvan şəhərində də yüksək əhvali-ruhiyyə ilə keçirilib.

AZƏRTAC-ın Naxçıvan bürosunun əməkdaşları bu əlamətdar hadisə ilə bağlı ilk olaraq 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsində olublar. Dairə Seçki Komissiyasının sədri Çingiz Məmişov bildirib ki, bu seçki dairəsi üzrə 37 məntəqədə 44 min 455 seçici qeydiyyata alınıb. Onlardan 504-ü ilk dəfə olaraq bu hüquqdan istifadə edib. Naxçıvan bələdiyyəsi üçün 29, Əliabad bələdiyyəsi üzrə 13 nəfərin namizədliyi qeydə alınıb.

Əməkdaşlar Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yerləşən 9 saylı seçki məntəqəsində də olublar. Qaydalara uyğun olaraq 4-9 saylı məntəqə seçki komissiyasının sədri Aynur Rzayeva komissiya üzvləri qarşısında seçki qutularının möhürlənməsini həyata keçirib. Məntəqədəki şəffaf seçki qutuları ayrı-ayrılıqda möhürlənib, seçkiyə vaxtında - saatlar 8:00-ı göstərəndə start verilib. Səhər saatlarından başlayaraq məntəqəyə seçicilərin axını müşahidə edilib. Bu məntəqədə 934 seçici qeydiyyatdadır. Onlardan 10-u ilk dəfə səs verib.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin binasında yerləşən 4-17 saylı seçki məntəqəsində də seçicilərin çoxluğu və yüksək əhvali-ruhiyyə ilə seçkiyə qatılmaq istəkləri diqqətimizi çəkdi. Artıq saat 12:00-dək 351 seçici səs verib. Onlardan Əyyub İsmayılov seçki prosesində iştirak etməyi özü üçün vətəndaşlıq mövqeyi, mənəvi borc hesab edir. O deyib ki, seçimini edərkən bələdiyyələrdə sakinlərin istək və arzularını yerinə yetirə biləcək namizədlərə səs verib.

Qeyd edək ki, bu məntəqə üzrə seçicilərin sayı 1398-dir. Quraşdırılan veb-kamera seçkilərin gedişini internet vasitəsilə də izləməyə imkan verir. Bu da seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsinə xidmət edir.

1292 seçicinin qeydiyyatda olduğu Naxçıvan Tibb Kollecinin binasında yerləşən 4-12 saylı seçki məntəqəsində də qələbəlik müşahidə olunub. Seçicilərdən yaşı 75-i haqlamış Tofiq Bayramov qeyd edib ki, komissiya üzvlərinin qanunauyğun fəaliyyəti vətəndaşların sərbəst şəkildə öz iradələrini ifadə etmələrinə və istədikləri namizədlərə səs vermələrinə şərait yaradıb. Buraya gələn hər kəs yaradılan bu şəraiti yüksək qiymətləndirib.

Seçici Vəli Baxşəliyev deyib ki, seçki prosesi Azərbaycan Respublikasının seçki qanunvericiliyinə tam uyğundur. O deyib: "Mən də bələdiyyə üzvlüyünə namizədlər arasında ən layiqli bildiklərimə səs verdim. İnanıram ki, seçdiyimiz bələdiyyə üzvləri şəhərimizin daha da inkişafına və gözəlləşməsinə xidmət edəcəklər".

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə yerləşən 4-28 saylı seçki məntəqəsində isə seçki siyahısında 1471 seçicinin adı var. İlk dəfə seçki hüququndan istifadə edən Zərifə Sarıyeva deyib ki, buna görə həm sevincli, həm də həyəcanlıdır. Onun fikrincə, bələdiyyələr əhatə etdiyi ərazilərdə müsbət yeniliklər yarada bilərlər. Ona görə də seçkilərdə iştirak edərək layiqli namizədlərə səs vermək lazımdır.

Muxtar Respublikanın Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarında da seçici fəallığı müşahidə edilib. Seçkilərdə heç bir qanun pozuntusuna yol verilməyib. Bütün məntəqələrdə seçkilər şəffaf və demokratik şəraitdə keçib.

Gəncə

Özünüidarəetmə orqanı olan bələdiyyələrə növbəti seçkilər uğurlu keçməsi ilə yadda qaldı. İnsanlar səhər tezdən seçki məntəqələrinə gələrək öz vətəndaşlıq borclarını fəallıqla yerinə yetirdilər.

Dekabrın 23-də bələdiyyələrə keçirilən seçkilər qərb bölgəsində də seçici fəallığı ilə müşayiət olunmuşdur. Seçki məntəqələrində səsvermə prosesi ilə bağlı müşahidələr, seçicilərlə aparılan söhbətlər onu deməyə əsas verir ki, insanlar öz talelərini təsadüfi adamlara etibar etmək istəmir və buna görə də ən çox inandıqları adamlara səs verirdilər.

Gəncədə 4 dairə üzrə 112 məntəqədə seçki keçirilmişdir. Seçkiləri 1000 nəfərdən artıq müşahidəçi izləmişdir. Səhər tezdəndir. Səsverməyə gələn şəhər sakinlərində ruh yüksəkliyi müşahidə olunur. Hamı özünün və ailəsinin, eləcə də yaşadığı ərazinin problemlərinin həllində fəallıq göstərəcək şəxslərə etibar etmək arzusundadır. Elə bu arzu ilə səhər saat 8-dən etibarən seçki məntəqələri dolub-boşalırdı. Seçicilər heç bir təzyiq olmadan sərbəst şəkildə istədikləri namizədlərə səs verirdilər.

38 saylı Nizami I (Gəncə) seçki dairəsinin 10 saylı məntəqəsi Azərbaycan Dövlət Aqrar Universitetində yerləşir. Burada seçki prosesi çox şəffaf və demokratik keçirdi. Bütün gün ərzində heç bir qanun pozuntusu müşahidə olunmayıb.

Məntəqəyə səs verməyə gələn Arif Qazıyev deyir ki, o, bələdiyyələrə çox inanır. Bir neçə dəfə bir sıra problemlə Nizami rayon bələdiyyəsinə müraciət edib. O dəqiqə də işə operativ yanaşılaraq həll edilib. Odur ki, növbəti seçkilərdə də fəallıqla iştirak edərək ən çox inandığı şəxsə səs verib.

38 saylı Nizami II (Gəncə), 39 saylı Kəpəz I (Gəncə), 40 saylı Kəpəz II (Gəncə) seçki dairələrinin məntəqələrində də yüksək əhvali-ruhiyyə hökm sürmüşdür. 39 saylı Kəpəz I (Gəncə) seçki dairəsinin 13 saylı məntəqəsində olduq. Məntəqə seçki komissiyasının sədri Nizami Rzayev deyir ki, məntəqədə 1225 seçici qeydiyyata alınıb. Müşahidəçilər üçün də rahat şərait yaradılıb. Seçkilərin azad və şəffaf keçirilməsi üçün məntəqədə veb-kamera da quraşdırılmışdır.

Seçkilərin azad və şəffaf keçirildiyini Azərbaycan Xalq Cəbhəsi Partiyasının nümayəndəsi Leyla Mustafayeva, Ana Vətən Partiyasının nümayəndəsi Nurlana Quliyeva da təsdiqlədilər. Onlar səsvermə başlayandan heç bir qanunazidd hərəkətin olmadığını söylədilər.

Bələdiyyə seçkilərinə ciddi hazırlığın nəticəsidir ki, 38 saylı Nizami II (Gəncə) seçki dairəsinin 13 saylı məntəqəsində böyük canlanma hiss olunurdu. Yaradılmış şəraitdən bəhrələnən seçicilər növbə ilə barmağına mürəkkəb vurduraraq siyahıda öz adı qarşısında imza edir və bülleten alaraq səsvermə kabinəsində istədiyi namizədin qarşısında işarə etməklə səs verirdi. Dairə Seçki Komissiyasının sədri Cabbar Qarayevdən aldığımız məlumata görə, bütün gün ərzində seçici fəallığı müşahidə olunmuşdur. Məntəqələrdə lazımi şərait təmin olunmuş, müxtəlif siyasi partiyalardan olan müşahidəçilərin heç birindən dairəyə şikayət daxil olmamışdır.

Seçkinin gedişi barədə AXCP-dən olan müşahidəçi Elman Atakişiyevə və Böyük Qurtuluş Partiyasından olan müşahidəçi Sahil İbrahimova verdiyimiz suala müsbət cavab aldıq. Onlar dedilər ki, heç bir qanunazidd hərəkətə yol verilməmişdir. Ümumiyyətlə, məntəqədə olan 12 nəfər müşahidəçinin hamısı seçkinin gedişindən razı qaldıqlarını söylədi.

Sumqayıt

Əhalisinin sayı ilbəil artan Sumqayıt sakinləri bütün seçkilərdə fəal iştirak edib və əksəriyyət səsini həmişə ən layiqli namizədə verib.

42 saylı Sumqayıt ikinci dairəsinin şəhər 3 saylı orta məktəbdə yerləşən 7 saylı seçki məntəqəsinin sədri Qulu Əbdürrəhmanov prosesin kifayət qədər şəffaf keçdiyini və səsverməyə gələnlərin fəallığının normal olduğunu söylədi. 970 nəfər seçicisi olan bu məntəqədə səsvermə üçün bütün şərait yaradılıb.

Səsverməyə gələnlər Cəmilə Əliyeva, Rəhilə Rəhimova, Mürsəl Qasımov, Abzər Əsədova və digərləri məntəqədə təşkil edilən şəraitdən razı qaldıqlarını bildirdilər. Seçici Svetlana Koçerqina bildirdi ki, son illər bələdiyyələrin fəaliyyəti genişlənib. Valentina Rəhimova ikinci mikrorayon sakinidir. Almanəsilli qadın Sumqayıtın yaşıdıdır. Məlahət Əsgərova , Sevda Rüstəmova və Firəngiz Bəhlulova seçkilərin şəffaf keçirildiyini vurğuladılar.

Şəhər 3 saylı tam orta məktəbdə 42 saylı Sumqayıt ikinci Seçki Dairəsinin 8 saylı seçki məntəqəsi də fəaliyyət göstərir. Məntəqənin sədri Ülkər Çəndirli səsvermənin normal keçdiyini və nəticələrə təsir göstərə biləcək qanun pozuntularına rast gəlinmədiyini söylədi. Seçici Benyamin Məmmədov bildirdi ki, 1935-ci ildə anadan olub. O, vurğuladı ki, pensiyaların artımı dövlətimizin bizə göstərdiyi qayğıdır: "Biz də gərək seçkilərdə yaxından iştirak edək ki, dövlətimizin apardığı uğurlu siyasətlə ayaqlaşa bilən ziyalı insanlar seçilsin. Yaxşıların seçimi bizdən asılıdır".

44 saylı Sumqayıt-Xızı seçki dairəsinin 1 saylı məntəqəsində də seçki fəallığı hiss edilirdi. Bu məntəqədə səs verən Eldar İsgəndərov, Nəzakət Əliyeva, Şəhla Qasımova və başqaları seçkinin şəffaf keçdiyini söylədilər.

43 saylı Sumqayıt 3-cü Seçki Dairəsinin 14 saylı məntəqəsində 15 nəfər ilk dəfə səs verirdi. Yaşlı nəslin nümayəndəsi Vilayət Məmmədov, ilk dəfə səs verən Elçin Əzizov bizimlə söhbətdə seçkidən razı qaldıqlarını bildirdilər.

Həmin məktəbin binasında fəaliyyət göstərən 13 saylı məntəqədə də seçki təlimat və qanuna uyğun şəkildə aparılırdı.

Abşeron

Abşeron rayonunun sakinləri bugünə qədər keçirilmiş bütün seçkilərdə fəal iştirak edib və ən layiqli namizədlərə səs veriblər.

45 saylı Abşeron Seçki Dairəsi 36 məntəqəni özündə birləşdirir. Seçki Dairəsi üzrə seçicilərin sayı 47890 nəfərdir. Seçki məntəqələri texniki avadanlıqlarla tam təmin olunub. Səsvermənin nəticəsi olaraq Xırdalan, Digah, Fatmayı, Goradil, Masazır, Mehdiabad və Məmmədli bələdiyyələri formalaşacaq.

Dairə üzrə 12 məntəqədə quraşdırılmış kameralar vasitəsilə səsvermənin gedişini birbaşa izləmək mümkün idi.

23 saylı seçki məntəqəsi Masazır qəsəbəsində Milli Qəhrəman Ə.Əliyev adına Qubablı rayon tam orta məktəbində təşkil olunub. Burada seçicilərin sayı 1492 nəfərdir. Məntəqə seçki komissiyasının sədri Sərvər Azadəliyev seçicilərin seçkilərə göstərdikləri maraqdan danışdı. O bildirdi ki, səsverməni müxtəlif partiyalardan olan müşahidəçilər izləyirlər.

Məntəqə seçki komissiyasının katibləri Yusif Nəcəfov, Tural Orduxanov, üzvləri Cəvahir Məlik-zadə, İradə Hacıyeva, Məhbubə Tahirova seçicilərə adlarını siyahıda tapmaqda kömək edirdilər. Seçicilər Xumar Yusifova, Nübar Zeynalova, Sevinc Şirəliyeva və digərləri səsvermənin gedişindən razı qaldıqlarını və istədikləri namizədə səs verdiklərini bildirdilər.

Lənkəran

Hər dəfə olduğu kimi, budəfəki bələdiyyə seçkilərinə də Lənkəranda hazırlıq işləri yüksək səviyyədə aparılmışdı. Seçkilərin şəffaflığını, demokratikliyini və mütəşəkkilliyini təmin etmək məqsədilə Lənkəran Şəhər İcra Hakimiyyəti öz səlahiyyətlərinə daxil olan vəzifələr çərçivəsində dairə və məntəqə seçki komissiyalarının normal fəaliyyəti və texniki təchizatı ilə bağlı lazımi tədbirlər həyata keçirmişdi. Bütün seçki məntəqələri fasiləsiz elektrik enerjisi və telefon rabitəsi, texniki avadanlıqlar və seçki təlimatları ilə təmin olunmuşdu.

Rayonda ikisi qarışıq olmaqla 4 DSK fəaliyyət göstərir. 73 saylı Lənkəran şəhər, 74 saylı Lənkəran kənd, 75 saylı Lənkəran-Masallı və 76 saylı Lənkəran-Astara Seçki dairələri üzrə ümumilikdə 116 seçki məntəqəsi yaradılıb. Bu məntəqələrin 22-də veb-kameralar quraşdırılıb. Rayon üzrə seçicilərin sayı 116 min 846 nəfərdir.

73 saylı Lənkəran Şəhər Seçki Dairəsinin 10 saylı orta məktəbdə yerləşən 7 saylı məntəqəsində səs verməyə gələnlər arasında diqqətimizi gənc bir qız çəkdi.

- Adım-soyadım Aytən Ağazadədir, - deyə o bildirdi. - İlk dəfə seçkilərdə iştirak edirəm. Yəqin ki, bu unudulmaz anları ömrüm boyu unutmaram. Səsvermədə iştirak etməklə həyatımın yeni mərhələsinə qədəm qoyuram. Həyəcanlı olsam da, özümü xoşbəxt hesab edirəm. Ölkə vətəndaşı kimi öz seçici hüququmdan sərbəst şəkildə istifadə etməyimdəm qürur hissi keçirirəm.

75 saylı Lənkəran-Masallı seçki dairəsi rayonun Liman şəhərində yerləşir. Dairə Seçki Komissiyasının sədri Cəmil Hüseynov bildirdi ki, bu dairədə Lənkəran rayonu üzrə 29, Masallı rayonu üzrə isə 12 seçki məntəqəsi təşkil edilib. Seçici siyahıları dəqiqləşdirilib və rayon üzrə 28 min 611 nəfər seçicinin adı siyahıya daxil edilib. Dairənin əhatə etdiyi bütün məntəqələr zəruri texniki avadanlıqlarla təchiz olunub. Seçici siyahıları hamının tanış ola biləcəyi yerdən asılıb. Dairənin 3 məntəqəsində veb-kamera quraşdırılıb.

Öyrəndik ki, dairə üzrə bir nəfər seçicinin 100-dən yuxarı yaşı var. Bu, rayonun Boladi kəndində yaşayan 1905-ci il təvəllüdlü Şahbikə Fərhad qızı Axundovadır. Sağlamlığında problem olduğundan 114 yaşlı Şahbikə nənə 13 saylı seşki məntəqəsinə gələ bilməyib, ərizə ilə müraciət edərək daşınan qutu vasitəsilə evində səs verib.

75 saylı dairənin 23 saylı Şağlaser kənd seçki məntəqəsində də seçicilərin sərbəst səsvermələri və komissiya üzvlərinin normal fəaliyyətləri üçün bütün imkanlar yaradılıb. Kənd sakini, Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş İqbal Həsənovun anası Əsmayə Həsənova dedi ki, mən günümü görüb, dövranımı sürmüşəm. Sevinirəm ki, xalqımız dinc şəraitdə yaşayır. Çoxlu oğul-uşağım, nəvə-nəticəm var. Hər biri də həyatda öz yerini tutub. Bu yaxınlarda şəhid ailəsi kimi mənə də 11 min manat birdəfəlik müavinət və hər cür şəraiti olan mənzil verildi. Buna görə şəxsən Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm. Biz ondan çox razıyıq. O ki qaldı bələdiyyə seçkisinə, yaxşı tanıdığım, etimad göstərdiyim namizədə səsimi verdim. Qoy həmişə yaxşı işləsinlər, xalqa xidmət etsinlər. Biz də onlardan razı qalaq.

Ağdam

Cəbhə bölgəsində yerləşən, ərazisinin dörddə üç hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Ağdam rayonunun sakinləri bələdiyyə seçkilərində fəal vətəndaş mövqeyi nümayiş etdirirdilər. İmamqulubəyli kəndində yerləşən seçki məntəqəsinin qarşısında xeyli sakin toplaşmışdı. Səsvermədə iştirak edib çıxanlar bir-biri ilə səmimi görüşüb hal-əhval tutur, seçki təəssüratlarını bölüşürdülər. Ağsaqqal Şükür Mirzəyev dedi:

- Prezident, parlament və bələdiyyə seçkilərində həmişə iştirak etmişəm. Bugünkü seçkidə emosiyalardan əsər-əlamət yoxdur, proses qaydasında gedir, heç bir qanunsuzluğa yol verilmir. Hər kəs öz səsvermə hüququndan istifadə edərək, gəlib istədiyi namizədə maneəsiz səs verib işinin-gücünün arxasınca yollanır. Bu gün müşahidə olunan mənzərə onu göstərir ki, seçkidən seçkiyə demokratiya yolunda böyük irəliləyiş əldə olunur. Səsvermə prosesi çox sakit məcrada gedir. Camaatımız ağı qaradan yaxşı seçir. Kənddə kimin nəyə qadir olduğunu hamı yaxşı bilir. Tam əminliklə demək istəyirəm ki, bu gün xalqın bəyəndiyi namizədlər seçiləcək.

118 saylı Ağdam kənd dairə seçki komissiyasının sədri Rövşən Şükürovdan öyrənidik ki, 39 məntəqəni özündə birləşdirən dairə üzrə seçicilərin ümumi sayı 31.063 nəfərdir. Səsverməyə bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınmış 384 nəfər buraxılmışdır. Onların 134-ü seçiləcəkdir. Səsvermə şəffaf və demokratik, qanunun tələblərinə uyğun qaydada davam edir.

Mingəçevir

Energetiklər şəhəri Mingəçevirdə bələdiyyə seçkilərinə nümunəvi hazırlığın məntiqi nəticəsidir ki, səsvermə prosesi heç bir qanun pozuntusu müşahidə olunmadan davam edirdi. 47 saylı Mingəçevir dairə seçki komissiyasının əhatə etdiyi 30 məntəqə üzrə siyahılarına 37.732 nəfər şəhər sakinin adı daxil edilmişdir. Səsvermənin şəffaflığını təmin etmək məqsədi ilə seçki məntəqələrinin 12-də veb-kamera quraşdırılmışdır. 19 yerə 60 namizəd qeydə alınmışdır. Bələdiyyə üzvlüyünə namizədlər arasında YAP, Ana Vətən, Ümid partiyalarının təmsilçiləri, eləcə də seçki prosesinə fərdi qaydada qoşulan vətəndaşlar yer alırlar.

Mingəçevir şəhər texniki humanitar liseyin direktoru Nailə Məmmədova seçki təəssüratları barədə dedi ki, ölkəmizdə və şəhərimizdə demokratik tələblərə cavab verən normal seçki mühiti yaranmışdır. Biz, seçicilər doğma şəhərimizin abadlaşmasında, gözəlləşməsində fəal iştirak etməyə qadir namizədlərə səs veririk. Təbii ki, namizədlərin əksəriyyətini yaxından tanıyırıq. Son illər vüsət almış abadlıq-quruculuq işləri, yeni yaradılan abad məhəllələr hər birimizdə razılıq doğurur. İnanırıq ki, bu gün seçdiyimiz yeni bələdiyyələr şəhərimizdə aparılan quruculuq işlərində fəal iştirak etməklə bu prosesi daha da sürətləndirəcəklər.

Göygöl

Bələdiyyə seçkilərində Göygöl sakinləri də fəallıqla iştirak etmişlər. 101 saylı Göygöl-Daşkəsən Dairə Seçki Komissiyasının sədri Abbas Zalovun verdiyi məlumata görə, seçkilərə ciddi hazırlığın nəticəsidir ki, heç bir qanun pozuntusu qeydə alınmamışdır. Göygöl rayonunda 46, Daşkəsən rayonunda isə 28 seçki məntəqəsi səhərdən axşama kimi seçicilərlə dolu olmuşdur. Göygöldə 206 yerə 629 nəfər, Daşkəsəndə isə 95 yerə 287 nəfər bələdiyyə üzvlüyünə namizəd vardı. Dairəni əhatə edən məntəqələrdə seçkiləri müşahidə etmək üçün Böyük Qurtuluş, Vətəndaş Birliyi, Azərbaycan Demokratik İslahatlar və Yeni Azərbaycan partiyalarının nümayəndələri seçkilərin gedişini müşahidə etmişlər.

Samux

102 saylı Samux-Şəmkir seçki dairəsində 51 seçki məntəqəsi fəaliyyət göstərmişdir ki, onlardan da 44-ü Samuxda, 7-si isə Şəmkirdə yerləşir. Ümumilikdə 45 min 464 seçicinin qeydə alındığı dairəni əhatə edən bütün seçki məntəqələrində böyük izdiham olmuşdur. Səhər tezdən seçki məntəqələrinə gələn və istədiyi namizədə səs verən seçicilərin üzündən sevinc oxunurdu. Əliuşağı kəndinin 101 yaşlı sakini Yamən Mehdiyeva da səs verənlərin arasında idi. Yaxınlaşıb təəssüratlarını soruşduq. Dedi ki, seçkilərin gedişindən olduqca razıdır. Heç kim onlara təzyiq göstərmir. Kim hansı namizədi istəyirsə, ona da səs verir. Kənd sakinləri bələdiyyədə görmək istədikləri adamların namizədliklərini elə özləri irəli sürüblər. İndi də onlara səs verməklə öz arzularını reallaşdırırlar.

Dairəni əhatə edən seçki məntəqələrində ilk dəfə səs verənlərin sayı da müəyyənləşmişdir. Həmin gün 839 nəfər ilk dəfə səs vermişdir. Ümumiyyətlə, məntəqələrdə seçicilərin sərbəst şəkildə səs vermələri üçün hər cür şərait yaradılmışdı.

Goranboy

Beynəlxalq təcrübədən yararlanmaqla ən qabaqcıl iş prinsiplərini gündəlik fəaliyyətlərində tətbiq edən bələdiyyələr artıq insanlar arasında böyük nüfuz qazanmışdır. Məhz buna görə də növbəti bələdiyyə seçkilərində insanlar fəallıqlarını daha da artıraraq istədikləri namizədə səs vermişlər. Həmin gün 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsinin seçki məntəqələrində də fəallıq hiss olunurdu. Dairə Seçki Komissiyasının sədri Faiq Məhərrəmovla söhbət zamanı aydın oldu ki, səhər tezdən bütün məntəqələrdə izdiham yaşanır.

Ümumilikdə 37 seçki məntəqəsində 23 min 977 nəfər seçici bələdiyyə seçkilərində namizədlərə öz münasibətini bildirməliydi. 161 yer uğrunda 484 nəfər bələdiyyə üzvü olmaq uğrunda mübarizə aparırdı. 293 nəfər ilk dəfə, 785 nəfər yaşı 80-dən yuxarı olan seçicilər məntəqələrə gələrək namizədlərə öz münasibətlərini bildirmişlər.

97 saylı seçki dairəsini əhatə edən ərazilərdə xəstə və hərəkəti məhdud olan seçicilərin də iştirakı təmin olunmuşdur. Məntəqə seçki komissiyasının üzvlərindən ibarət xüsusi qrup daşınan seçki qutusunu evlərə aparmış və onların səs verməsini təmin etmişlər.

Qazax

Məlum olduğu kimi, dövlət və cəmiyyətin idarə olunmasında bələdiyyələr də yaxından iştirak edirlər. Odur ki, insanlar bələdiyyə seçkilərində elə namizədi seçməyə çalışırlar ki, sonradan peşiman olmasınlar. Bu baxımdan Qazaxda keçirilən bələdiyyə seçkilərinə ciddi şəkildə hazırlıq işləri görülmüşdü. Xüsusilə istədikləri adamı bələdiyyə üzvü görmək arzularını gerçəkləşdirmək üçün seçkilərdə fəallıq göstərir, ən layiqlilərinə səs verirdilər.

107 saylı Qazax seçki dairəsini əhatə edən məntəqələrdə bunun bir daha şahidi olduq. Seçkilərin nə qədər məsuliyyətli olduğunu dərk edən rayon sakinləri böyük həvəslə məntəqələrə gəlir, istədikləri namizədlərə səs verirdilər. Dairə üzrə 14 bələdiyyəyə 136 üzv seçilməli idi. Bunun üçün 453 namizəd bələdiyyə üzvü olmaq uğrunda mübarizə aparırdı. Seçki prosesini izləyərkən bir daha şahid olduq ki, insanlar növbəti bələdiyyə seçkilərinin də şəffaf və demokrtik keçiriləcəyinə əmindirlər. Bunu Bütöv Azərbaycan Xalq Cəbhəsi, Milli Dirçəliş və Sosial Rifah partiyalarının müşahidəçiləri də təsdiq etdilər. Yaşı 100-ü ötmüş Sayalı Nəbiyeva da seçkilərin demokratik keçdiyini söylədi. Dedi ki, Qazaxın həmsərhəd kəndi olan Kəmərlidəndir: "Sevinirəm ki, müstəqil respublikamızda keçirilən seçkilərdə iştirak edirəm. Ermənilər, demək olar ki, hər gün atəş açırlar. Lakin biz qətiyyən qorxmuruq. Bilirik ki, Azərbaycan Ordusu onların cavabını verəcəkdir".

Quba

52 saylı Quba Seçki Dairəsi üzrə seçki məntəqələri seçki qanunvericiliyinə uyğun olaraq bütün texniki avadanlıqlarla təmin edilib. Rayonda fəaliyyət göstərən 72 seçki məntəqəsinin 10-da kameralar quraşdırılıb. 7 kamera rayon mərkəzində, 3-ü isə Vəlvələ, Dağlı və Qəçrəş kəndlərindədir.

Dairə üzrə qeydə alınmış müşahidəçilərin sayı 730 nəfərdir. Onlar respublikamızda fəaliyyət göstərən siyasi partiyaların nümayəndələri və bitərəflərdir. Rayonda 19 bələdiyyə formalaşdırılacaq. 165 bələdiyyə üzvünə qarşı 491 namizəd mübarizə aparırdı.

DSK-nın sədri Mübariz Abasov bildirdi ki, səhər erkən start götürmüş səsvermədə ilk dəfə səs verən gənclərin sayı 258 nəfərdən çoxdur. İstər rayon mərkəzində, istərsə də kəndlərdə gənclər fəallığı ilə seçilirlər. Yaşı 80-dən yuxarı seçicilərin sayı 627 nəfərdir. 72 məntəqənin hər birində seçicilər seçki qanun və təlimatlarına uyğun şəkildə istədikləri namizədə səs verirlər. Seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb.

5 saylı məntəqə Quba şəhər 3 saylı tam orta məktəbdə təşkil edilib. Məntəqə seçki komissiyasının sədri Sara Ağayeva səsvermə üçün bütün şəraitin yaradıldığını bildirdi.

Seçicilər G.Zeynalova, Z.Yəhyayeva, G.Şıxbalayeva və başqaları da seçkilərin şəffaf keçdiyini bildirdilər.

Yardımlı

Yerli idarəetmə orqanlarına keçiriləcək seçkilər üçün 72 saylı Yardımlı-Masallı DSK-da 82 məntəqə yaradılıb. Bunlardan 68-i Yardımlıda, 14-ü isə Masallıda yerləşir. 5 məntəqədə vebkamera quraşdırılıb. Fiziki cəhətdən qüsurlu seçicilər də nəzərə alınıb və 3 məntəqədə panduslar yerləşdirilib.

Seçkilərin yüksək səviyyədə - azad və demokratik şəraitdə keçirilməsi üçün hər cür şərait yaradılıb. Seçki məntəqələrinin maddi-texniki bazası gücləndirilib, namizədlərin təbliğat-təşviqat kampaniyası aparması üçün açıq və qapalı yerlər ayrılıb. Bu haqda yerli "Zirvə" qəzetində məlumat dərc olunub. Builki bələdiyyə seçkilərində 720 namizəd mübarizə aparır. Seçkilərə saat 08:00 da start verilib və seçki məntəqələrində aktivlik müşahidə olunur. Seçicilər sərbəst şəkildə gəlib öz iradələrini ifadə edirdilər.

14 saylı Köryədi seçki məntəqəsində səs verməyə gələn ağsaqqal Ağasəf İsmayılov dedi:

- Öz iradəmi azad və sərbəst şəkildə ifadə etmək üçün burada hər cür şərait var. Mənə heç kəs təsir göstərmədi, bülleten alıb səsimi verdim. Xeyirli olsun!

45 saylı Şəfəqli seçki məntəqəsində səs verməyə gələn gənclər Ceyhun Cəfərov və Cavid Məmmədov da seçkilərin gedişindən razılıqlarını bildirdilər:

- Yaxşı şərait yaradılıb, seçicilərin yönəldilməsi prosesinə rast gəlmədik. Şəxsiyyət vəsiqəmizi təqdim etdik, bülleten aldıq və istədiyimiz namizədlərə səsimizi verdik.

Şabran

54 saylı Şabran-Siyəzən Seçki Dairəsi ərazidə yaşayan seçicilərin müəyyən hissəsini əhatə edir. 52200 nəfər seçicisi olan dairədə Seçki Dairəsinin 5 saylı seçki məntəqəsi Şabran rayon 3 saylı tam orta məktəbin binasında fəaliyyət göstərir.

Məntəqə sədri Fidan Fərzəliyeva bildirdi ki, seçicilər tam demokratik şəkildə öz namizədlərinə səs verirlər.

Rafiq Əsədullayev, Güllər Məmmədova, Səfa Allahverdiyev, Röya Gamallı və digərləri seçkinin gedişindən razı qaldıqlarını bildirdilər.

5 saylı seçki məntəqəsində ilk dəfə səs verənlərin sayı 8 nəfər idi. Səsvermə günü müşahidəçilər üçün xüsusi yer ayrılmışdı. 7 müşahidəçi qanun pozuntusuna yol verilmədiyini bildirdi.

Astara

Rayon sakinləri 69 seçki məntəqəsində növbəti beş il üçün onlara daha yüksək xidmət edə bilən, problemlərinin həllinə kömək göstərən, qaldırılan məsələlərə obyektiv yanaşan namizədlərə səs verdilər.

Astara şəhər 1 saylı seçki məntəqəsində səs verən şəhər sakini Həliməxatun Qurbanova dedi ki, seçimini yerli əhəmiyyətli məsələlərin həllində aktivlik göstərən, ictimaiyyətdə nüfuzu olan şəxslərə verdi. Digər şəhər sakini 58 yaşlı Rüfət Məmmədov da səsvermənin gedişindən razı qaldığını bildirdi: "Yerli özünüidarəetmə orqanları olan bələdiyyələr əhali ilə daha yaxından təmasda olan orqandır. Sakinlər üzləşdikləri problemlərlə bağlı ilk növbədə bələdiyyələrə müraciət edirlər. Arzum budur ki, yeni seçiləcək bələdiyyə üzvləri yerli əhəmiyyətli sosial məsələlərin həllində daha fəal iştirak etsinlər".

Məntəqə seçki komissiyasının sədri Hacıbala Ramazanovun verdiyi məlumata görə, məntəqədə 1500 nəfərin adı seçici siyahısına daxil edilib. Onlardan 6 nəfəri ilk dəfə səs verənlərdir.

Təkcə şəhərdə deyil, ucqar kəndlərdə də seçicilər fəal oldular. İlk dəfə səs verən Rəvan Hacızadə qeyd etdi ki, kəndin inkişafında, yerli əhəmiyyətli məsələlərin həllində fəal olan namizədlərə səs verib: "Səs verdiyim 13 saylı seçki məntəqəsində bütün proses qanunlara uyğun olmuşdur. Hər bir seçici seçimini etməkdə sərbəst idi".

Ümumiyyətlə, rayonun hər iki dairəsinə daxil olan məntəqələrdə seçkilərin şəffaf, ədalətli və obyektiv keçirilməsi üçün yüksək şərait yaradılmışdır. Bunu məntəqələrdəki vəziyyəti müşahidə edən həm müxalifət, həm də qeyri-hökumət təşkilatlarının nümayəndələri də etiraf etmişlər. Azərbaycan Demokratik İslahatlar Partiyasının nümayəndəsi Ələddin İskəndərov seçkilərin demokratikliyinə qətiyyən şübhə etmədiyini bildirərək qeyd etdi ki, hər yerdə olduğu kimi, şəhər 1 saylı seçki məntəqəsində də seçki qanunvericiliyinin tələblərinə ciddi əməl olunmuşdur.

Masallı

Masallı rayonunda 70 saylı şəhər və 71 saylı kənd dairə seçki komissiyaları fəaliyyət göstərir. 70 saylı Masallı Seçki Dairəsinə 42 seçki məntəqəsi daxildir. Qasımlı kənd 70/36 saylı seçki məntəqəsi kənd tam orta məktəbinin binasında yerləşir. Məntəqə sədri Surət Nuriyev:

- 1249 nəfər seçicimiz var. Onlar dövlətçiliyə, xoş günlərə səs verirlər. Kənd sakinlərindən Qəyyum Abdullayev, Rza Rzayev, Bayram Kərimov və başqaları ilk səs verənlərdir.

Seçici Rəzzaq Məmmədov:

- 60 yaşım var, çox seçkilərdə iştirak etmişəm. Bələdiyyə seçkisinə də diqqətlə yanaşmalı və düzgün seçim etməliyik. Səsvermə çox yaxşı gedir, heç bir təzyiqdən, müdaxilədən söhbət ola bilməz.

Müstəqil müşahidəçilər də bildirdilər ki, seçki məntəqəsi açılandan hər bir proses Seçki Məcəlləsinin tələblərinə uyğun davam edir. Səsvermə zamanı heç bir seçki pozuntusu qeydə alınmayıb.

70 saylı Masallı Seçki Dairəsinin sədri İlkin Hüseynov DSK-nın digər məntəqələrində də seçicilərin fəallığının hiss olunduğunu qeyd etdi. Bildirdi ki, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Dairə üzrə 11 bələdiyyəyə 117 nəfər üzv seçilməlidir. Qeydə alınan namizədlərin sayı isə 273 nəfərdir. Onların 148 nəfəri namizədliyini özü irəli sürmüşdür. Qalanları partiyaların təmsilçiləridir.

71 saylı Masallı Dairə Seçki Komissiyasının sədri Loğman Şahbazov isə bildirdi ki, dairə üzrə 42 məntəqədə 35 min 233 nəfər seçici qeydə alınıb: "Seçicilərin 636 nəfəri ilk dəfə səs verən gənclərdir. Ən yaşlı seçici Qızılağac sakini 101 yaşlı Ağanənə Abbasovadır. Ümumiyyətlə, 80-100 yaş arasında olan seçicilərin sayı 862 nəfərdir". Dairə üzrə 12 bələdiyyəyə 124 nəfər üzv seçiləcək. 2 min 93 nəfərin namizədliyi irəli sürülmüşdür ki, onların da əksəriyyəti YAP, Sosial Rifah, Ana Vətən, Böyük Qurtuluş, Bütöv Azərbaycan Xalq Cəbhəsi, Vətəndaş Birliyi, Demokratik İslahatlar, Azərbaycan Naminə Alyans, Aydınlar partiyalarından olan namizədlərdir.

Xaçmaz

Xaçmaz rayonunda iki seçki dairəsi fəaliyyət göstərir. 55 saylı seçki dairəsi rayon mərkəzində yerləşir. DSK-nın sədri Bəhram Ömərov bildirdi ki, bələdiyyə seçkilərində qeydə alınan namizədlərin hamısına normal seçki keçirmək üçün hər şərait yaradılıb. Dairə üzrə 421 yerli müşahidəçinin izlədiyi səsvermə fəal keçir.

Rayon üzrə formalaşan 42 seçki məntəqəsinin 12-də veb-kamera quraşdırılıb. Dairə üzrə ilk dəfə səs verənlər 370 nəfərdir.

Məntəqələr açılandan seçicilər öz vətəndaşlıq borclarını yerinə yetirməyə gəlirdi. 8 saylı seçki məntəqəsində seçici fəallığı hiss edilirdi. Məntəqə seçki komissiyasının sədri Cəlil Mərdanov dedi ki, məntəqədə seçkini 8 yerli müşahidəçi izləyir. Seçkilərə start veriləndən məntəqə üzrə ilk dəfə səs verənlər (23 nəfər) birinci gələrək səsvermədə iştirak ediblər. Anar Sadıqov, Aytac Bahadurova, Bənzər Hüseynova, Anar Mirzəliyev bələdiyyə seçkilərində öz səslərini layiq gördükləri namizədə verdiklərini bildirdilər.

Salyan

Salyanda 2 dairə - 59 saylı Salyan və 60 saylı Salyan-Neftçala DSK fəaliyyət göstərir. 59 saylı dairə üzrə 40, 60 saylı dairədə isə 39 məntəqə vardır.

59 saylı Salyan Seçki Dairəsində 7 bələdiyyəyə 77 nəfər, 60 saylı Salyan-Neftçala Dairəsində 15 bələdiyyəyə 45 nəfər üzv seçilməlidir. 59 saylı dairədə namizədlərin sayı 77-yə qarşı 262, 60 saylıda isə 145-ə qarşı 431 nəfərdir. Bu da ən yaxşıların yaxşısını seçməyə imkan yaratmışdır.

7 saylı məntəqədə səs verən Səbuhə Məmmədovadan fikrini bildirməyi xahiş etdik. Dedi ki, seçki ədalətli, demokratik, şəffaf keçir. Elə düşünürəm ki, səs verdiyim namizəd seçilərsə, sosial məsələlərin həllində yaxından iştirak edər. Onun buna biliyi, savadı, təcrübəsi, səriştəsi çatar. Müşahidəçi Sadat Səmədova isə seçkinin gedişi barədə belə dedi:

- Məntəqə açılandan buradayam. Seçki şəffaf keçir. Hər bir seçici istədiyi namizədə səs verir.

60 saylı Salyan-Neftçala DSK-nın 12 saylı məntəqəsi Qarabağlı kənd tam orta məktəbində yerləşir. Seçicilər burada Qarabağlı bələdiyyəsinə namizədliyi irəli sürülmüş 30 nəfərdən 6-nı seçəcəklər. Seçici Günel Məmmədova:

- Camaatın bələdiyyələrdən gözləntiləri çoxdur. Mən istəyirəm ki, bu qurum fəaliyyətini artırsın. Yol çəksin, körpü salsın, məktəb tiksin və digər işlər görsün. Yəqin yaxın gələcəkdə belə olacaq. Çünki dövlətimiz bələdiyyələrin fəaliyyətini genişləndirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirir.

Şirvan

46 saylı Şirvan DSK üzrə 34 məntəqəni özündə birləşdirən 2 bələdiyyəyə - Şirvan və Hacıqəhrəmanlı bələdiyyələrinə seçkilər keçirilmişdir. Şirvan bələdiyyəsinə üzvlər seçmək üçün 17 yerə qarşı 65 nəfərin namizədliyi irəli sürülmüşdür. Onlardan 23 nəfəri siyasi partiyaların nümayəndələri, 42 nəfər isə öz təşəbbüsləri ilə irəli sürülmüş namizədlər idi. Dairə üzrə 33 məntəqənin 41 min 854 seçicisi onlara qarşı öz münasibətlərini bildirməli idilər.

Hacıqəhrəmanlı bələdiyyəsinin üzvlüyünə isə 9 nəfər seçilməli idi. Burada 29 namizəd qeydə alınmışdı. Namizədlərdən 9 nəfəri siyasi partiyalardan, 20 nəfəri öz təşəbbüsləri ilə irəli sürülənlər idi. Seçkilərin gedişini izləmək üçün ümumilikdə Şirvan DSK üzrə 12 veb-kamera quraşdırılmışdı.

28 saylı məntəqə Şirvan şəhərinin mərkəzində yerləşən Humanitar Kollecdə təşkil olunub. Seçici Marif Məmmədhüseynov dedi ki, mən seçkinin gedişindən razı qaldım. Güman edirəm ki, digər seçicilər də mənim fikrimə şərik olarlar. Arzu edirəm yeni seçiləcək heyət səmərəli fəaliyyət göstərib bələdiyyə qurumunun nüfuzunu daha da artırsın.

Lerik

Ötən bələdiyyə seçkilərindən sonra dağlar şəhərində xeyli abadlıq işləri görülüb. Uşaq bağçası, kənd təsərrüfatı işçiləri üçün inzibati bina istifadəyə verilib, modul elektrik stansiyası işə salınıb, internat məktəbi üçün üçmərtəbəli yataqxananın və idman zalının tikintisinə başlanılıb. Həmçinin Prezident İlham Əliyevin Lerikə növbəti səfərindən sonra şəhərə su kəməri çəkilib, 48 aztəminatlı ailə üçün ev tikilib. Yeni yaşayış məhəlləsində küçələrə asfalt döşənib, yollar boyunca bəzək ağacları və kollar əkilib.

Şəhərdəki 1 saylı məntəqədə 1290 nəfər seçici qeydə alınıb. Səsverməyə əvvəlcə prezident təqaüdçüsü, alim Musa Bədəlov dəvət olundu. Sonra növbə 18 yaşı yenicə tamam olmuş Nərmin Şiriyevaya çatdı. Ona səsvermə bülleteni və gül dəstəsi təqdim edib, təbrik etdilər. Gənc qız müstəqil dövlətin seçicisi olması ilə qürur hissi keçirdiyini bildirib səsvermə kabinəsinə keçdi.

Rayonun 108 səsvermə məntəqəsində seçki qanunvericiliyin tələbləri əsasında başa çatdı. 78 saylı Lerik Seçki Dairəsinin sədri İdris Şıxəliyev dedi ki, vaxtında görülən yüksək səviyyəli hazırlıq səmərəsini verdi. Seçicilər məntəqələrə rahat gəlib vətəndaşlıq borclarını yerinə yetirdilər.

Neftçala

Neftçaladakı 61 saylı DSK-nın 41 məntəqəsi səhər tezdən öz qapılarını seçicilərin üzünə açdı. Burada da təqvim planına uyğun olaraq bütün işlər vaxtında görülüb başa çatdırılmışdı.

İlk olaraq yolumuzu 7 saylı məntəqədən saldıq. Artıq səsvermə gedirdi. İlk dəfə səs verən gənclər istisna olmaqla, səsverməyə gələnlər təcrübəli idilər. Seçkilərin gedişini izləyən müşahidəçilərin də sayı az deyildi. Məntəqədə veb-kamera da quraşdırılmışdı. Öyrəndik ki, məntəqə üzrə 35 seçici səhhəti ilə bağlı ərizə ilə müraciət edib. Bir nəfər məntəqə üzvü müşahidəçi ilə birlikdə onların yanına yollanıblar.

Seçici Təbriz Əhmədov seçkinin gedişi ilə əlaqədar öz təəssüratını belə izah etdi:

- Seçkilər azad, demokratik, şəffaf keçir. Heç bir müdaxilə, qanun pozuntusu ilə rastlaşmadım. İstədiyim namizədin adı, soyadı qarşısındakı işarəyə nişan qoyub seçimimi etdim.

Biləsuvar

Ölkəmizdə bələdiyyələrin fəaliyyətə başlamasının 20-ci ildönümünə təsadüf edən sayca 5-ci bələdiyyə seçkiləri Biləsuvar rayonunun 66 saylı Biləsuvar Seçki Dairəsinin əhatə etdiyi məntəqələrdə də mütəşəkkil keçirildi. Budəfəki bələdiyyə seçkilərinə 509 namizəd 188 yer uğrunda mübarizəyə qoşulub. Seçkiləri izləmək üçün 542 müşahidəçi qeydiyyatdan keçib. 10 məntəqədə veb-kamera quraşdırılıb. Adı siyahıya daxil edilənlərdən 629 nəfəri bu il ilk dəfə səsvermə hüququ qazanan gənclərdir. Namizədlərin üçdə biri siyasi partiyalar tərəfindən dəstəklənən, 319 nəfər öz təşəbbüsləri ilə namizədliyi irəli sürülənlərdir.

Dairənin 3 saylı seçki məntəqəsində də səsvermənin qaydalara müvafiq keçirildiyinin şahidi olduq. Məntəqə seçki komissiyasının sədri Həmdulla Mənsimov dedi:

- İndi seçicilər öz hüquq və vəzifələrini yaxşı bilirlər. Heç kəs seçicilərə təzyiq edə, istiqamət verə bilməz. Buna görə də səsvermə normal və qanunauyğun gedir.

Seçicilərdən biri, 81 yaşlı şəhər sakini Sahibəli Mirzəyev dedi ki, indiyə qədər iştirak etdiyim seçkilərin dəqiq sayını bilmirəm. Amma onu deyə bilərəm ki, müstəqillik illərində Azərbaycanda seçkilər get-gedə daha demokratik keçir, səviyyə durmadan yüksəlir. Elə bu seçkiləri götürək. Məntəqələr geniş, işıqlı, komissiya üzvləri gülərüz, mehribandırlar. Heç bir gərginlik hiss olunmur. Seçicilər üçün çox yaxşı şərait yaradılıb. İnanmaq istəyirəm ki, qalib gələn namizədlər də etimadı doğrultmağa, şəhərimizin abadlıq və quruculuq işlərində yüksək fəallıq göstərməyə çalışacaqlar.

"AZƏRBAYCAN"